

***Liderlik insanları ümumi, ortaq məqsədə çatmaları üçün səfərbər etmək bacarığıdır. İnsanların ümumi məqsədi örnəyini nəzərə alsaq və bunu bütöv bir xalqa tətbiq etsək, dünyada çox az dövlət, xalq tapılar ki, hamılıqla ortaq bir marağa, bəlli bir hədəfə, müqəddəs bir amala çatmaq istəkləri olsun. Əlbəttə, xalqımızın başına gətirilən müsibətlər, torpaqlarımızın işğalı 30 ilə yaxın bir müddət ərzində Azərbaycan xalqını ortaq bir arzuya, həsrətə yönəltmişdi: Qarabağ. Xalqımız 1990-cı il 20 Yanvar hadisələrindən sonra yekdilliklə ulu öndər Heydər Əliyevi hakimiyyətə qayıtmağa səsləyəndə də birlik və həmrəylik göstərmişdi. Lakin biz heç özümüz də anlamırdıq ki, bu birlik hər bir çətinliyin öhdəsindən gələ bilər. Birliyimiz, bərabərliyimiz Prezident İlham Əliyevin düşünülmüş addımlarla hədəfə doğru irəlilədiyi liderlik marafonu dövründə “dəmir yumruq” formasını aldı. Bu, o yumruqdur ki, düşmənlərimizin “şüşələrə sığınan” cin ürəyini, elə onu himayə edən şüşə ilə birlikdə xıncım-xıncım etdi.***

# LİDERLİK missiyası

Liderlik anlayışı ən kiçik müəssisədən tutmuş, böyük imperiyalara qədər eyni ortaq məxrəcdə birləşir. Bu, sadəcə, bir toplunun başçısı, rəhbəri deyil, eyni zamanda onun fərdi olmaqdır. Tarix boyu, zaman-zaman bir xalqın, dövlətin taleyini dəyişdirən, onları zülmət gecədən işıqlı, parlaq sabaha aparan, bu yolda gəncliyini, sağlamlığını, bir sözlə, bütün həyatını fəda edən dahi liderlər mövcud olub. Bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycan xalqı həmin liderlərdən birinə – “XXI əsrin lideri”nə malik olduğu üçün xoşbəxtdir.

### Müzəffər lider

Azərbaycan xalqı qalib xalqdır. Lakin bu, bizim özümüzə verdiyimiz bir status deyil. Son 18 illik tariximizə nəzər salsaq görərik ki, respublika ərazisində həyata keçirilən bütün islahatlar, kiçikli-böyüklü bütün hadisələr “qələbə”, “azadlıq” sözlərinin fonunda gerçəkləşib. Xalqımız Vətən müharibəsi zamanı dahi liderin 18 illik fəaliyyəti ərzində bir rəssamtək qarış-qarış, rəng-rəng çəkdiyi “böyük tablo”nu Vətən müharibəsi ilə daha aydın gördü. Anladı ki, bugünə qədər olanlar, ölkədə açılan kiçik iş yerlərindən, hərbi hissələrə qədər hər bir obyekt, atılan hər bir addım bizi işğal edilmiş torpaqlarımıza, böyük və şanlı qələbəmizə aparırmış.

**(ardı 2-ci səhifədə)**

# LİDERLİK missiyası



(əvvəli 1-ci səhifədə)

Bizi qələbəmizə aparan bu yolun təməli yenicə müstəqillik qazanan Azərbaycan böhran bataqlığında boğularkən hakimiyyətə gələn ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Həmin dövrə də nəzər saldıqda başa düşürük ki, bir xalqın taleyini dəyişdirən, başıbəlalı Azərbaycana dünya arenasında nüfuz qazandıran ulu öndər də hər zaman atdığı addımlarda, həyata keçirdiyi islahatlarda təkcə bu günü deyil, həm də gələcəyi düşünür, torpaqlarımızın işğaldan azad edilməsini hədəfləyirdi.

Qədim türk miflərindən günümüzə qədər gəlib çatan və hələ də öz aktuallığını qoruyan belə bir söz var : “kızıl elma”. Hərfi tərcümə zamanı “qırmızı alma” kimi başa düşülən bu ifadə, əslində, qədim türklər, xüsusilə Oğuz türkləri üçün düşünüldükcə özlərindən uzaqlaşan, ancaq uzaqlaşdıqca daha da müqəddəsləşən, cazibəsi artan hədəf mənasına gəlirdi. Bu, tarix boyu türk hökmdarlarının öz savaşlarına, amallarına və ən əsası da hədəflərinə verdiyi ad olub. Tale elə gətirdi ki, Azərbaycan xalqı da 30 il boyunca öz “kızıl elma”sına çatmaq, onu dadmaq üçün mübarizə apardı. Dövr fərqli olsa da, hədəf yenə eyni idi.

Lakin bu müqəddəs amalımız biz ona addımladıqca bizdən uzaqlaşmır, zaman keçdikcə daha da yaxınlaşırdı. Prezident İlham Əliyevin çıxışları, xalqa müraciətləri zamanı səsləndirdiyi fikirlərə diqqət yetirsək, bunu rahatlıqla dərk edə bilərik. Məsələn, qalib sərkərdəmiz bu prosesin gedişatı ilə bağlı danışarkən hər zaman qeyd edir ki, qalibiyyətə qədər uzanan bu zəfər bir-biri ilə zəncirvari əlaqədə olan və respublikanın bütün sahələrinə yayılan islahatlarla mümkün olub. Təbii ki, bir müharibədə qələbə qazanmaq üçün əvvəlcə ölkə daxilində sabitlik, birlik və əmin-amanlıq yaratmaq lazım idi. Bütün bunları təmin etmək üçün həm əhalinin rifah səviyyəsini yaxşılaşdırmaq, həm ölkənin bütün sahələrində inkişafı təmin etmək gərəkli idi. Bunun sayəsində xalqın liderinə olan inamı daha da artır, bununla da zəncirin ilk iki halqası olan xalq və lider birləşmiş olurdu.

Ölkəmizdə gedən proseslərə nəzər salsaq görərik ki, zəncirin növbəti halqası iqtisadi müstəqilliyin təmin edilməsi idi. Belə ki, Prezidentimiz dəfələrlə qeyd edib ki, iqtisadi azadlıq, heç bir xarici qüvvədən asılı olmamaq qələbəmizi şərtləndirən əsas amillərdən biri idi. Gənclərin vətənpərvər ruhda yetişdirilməsi, respublika üzrə ən böyük vəsaitin ayrıldığı sahənin ordu quruculuğu olması, ordumuzun maddi-texniki bazasının gücləndirilməsi, zəncirin sonuncu və həlledici halqasını əmələ gətirir. Beləliklə, ümumiləşdirdiyimiz zaman ortaya belə bir formul çıxır: lider –xalq – müstəqil iqtisadiyyat – güclü ordu zənciri Azərbaycanı Vətən müharibəsində qələbəyə aparan, “dəmir yumruğ”u təşkil edən əsas elementlərdir.

## Mahir strateq

Bu sərlövhəni qeyd edərkən bütün bu fikirləri yığcam bir yazıda necə birləşdirə biləcəyimi, hətta bunu bacarıb-bacarmayacağımı bilmirdim. Lakin sonra ağlıma Prezidentimizin 20 ilə yaxın davam edən hazırlıq dövrünü, ötən əsrin sonlarından başlayan işğal və haqsızlıqlar zamanını, həm müharibənin gedişatı, həm post-müharibə dövründə yaranan yeni reallıqları, həm də dostumuz olan dövlətlərin və təşkilatların münaqişə və müharibə dövründə bizə verdikləri dəstəyi bir neçə saatlıq nitqə sığışdırdığını düşünəndə bu, mənim üçün həm rəhbər, həm ilham oldu.

Bu hissəyə başlayarkən e.ə V əsrdə yaşadığı təxmin edilən çinli filosof, savaş dahisi Sun Tzunun 2 min 500 il əvvəl dediyi bir ifadəni xatırlamaq yerinə düşərdi: “Taktika olmadan strategiya zəfərə gedən ən yavaş yoldur”. Bu misalın fonunda Prezident İlham Əliyevin həm düşməni, həm də özümüzü yaxşı tanıyan, mövcud olan əskikliklərimizi düzgün dəyərləndirib, onları aradan qaldırmağa çalışan mahir bir liderin obrazı canlanır. Necə deyərlər, düşməni tanıdığınız qədər özünüzü də tanıyırsınızsa, zəfər barəsində şübhəniz olmasın. Hər bir müharibə dövrün şərtlərinə, tələblərinə uyğun aparılır.

Prezident İlham Əliyev yaxşı başa düşürdü ki, dövrümüzdə müharibə təkcə döyüş meydanında deyil, həm də informasiya sahəsində aparılır. Azərbaycanda uzun illər davam edən informasiya təhlükəsizliyi siyasəti və dövlət başçımızın bu siyasətə şəxsən rəhbərlik etməsi də məhz bu səbəbdəndir. Əvvəlcə dünyanı Qarbağda baş verən vəhşiliklərin həqiqi üzü ilə tanış etmək lazım idi. Haqq işimizi təbliğ etmək, səsimizi dörd yana yaymaq üçün, bu, birinci növbədə gəlirdi. Respublikamızın beynəlxalq arenada qazandığı nüfuz, dünyanı maraqlandıran qlobal çağırışların, problemlərin həlli zamanı söz sahibi olan ölkəyə çevrilməsi bu siyasətin davamı idi. Həm düşmənlərimiz, həm də bütün dünya başa düşürdü ki, Azərbaycan ötən əsrin 90-cı illərindəki “başından vur, çörəyini al” durumunda deyil, günü-gündən inkişaf edir, güclənir. Daha əvvəl qeyd etdiyim kimi, informasiya təhlükəsizliyinin təmin edilməsi üçün bütün lazımi islahatlar həyata keçirildi. Bunlarla yanaşı, inkişaf edən iqtisadiyyat, güclənən ordu bizi hədəfimizə yaxınlaşdırırdı. Daim sülh tərəfdarı olan ölkəmiz, düşmənin xain üzünə bələd olduğundan bir tərəfdən də müharibəyə hazırlaşırdı. 44 gün davam edən Vətən müharibəsi zamanı Prezident İlham Əliyevin xalqa müraciətləri, yerli və xarici – KİV-ə verdiyi müsahibələr isə informasiya müharibəsindəki parlaq Qələbəmizi təmin etdi. Belə ki, bütün reallıqları birinci ağızdan eşidən ictimaiyyət yalan-yanlış xəbərlərə etimad göstərmir, eləcə erməni lobbisinin uydurduğu saxta faktlar həm gözdən, həm də hörmətdən düşürdü. Hətta uzun illər erməni tərəfdarı olan bəzi qüvvələr, həqiqətləri görüb Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini açıqladı. Beləliklə, addım-addım yaxınlaşdığımız qələbə, artıq daha yaxın, daha real və öz əlimizdə idi.

## İmana sədaqət

Prezidentimiz bu barədə danışarkən qeyd edir ki, hər bir müsəlmanın qəlbində hansı hisslər, duyğular varsa, mənim də içimdə həmin hisslər mövcuddur. Bizi qələbəyə aparan qüvvələrdən biri də məhz bu iman, qəlbimizdə və dilimizdə etdiyimiz dualar idi. Otuz ilə yaxın işğal altında qalan torpaqlarımızı azad edərkən qarşımıza çıxan ən sarsıdıcı mənzərələrdən biri də məscidlərimizin, ibadətgahlarımızın başına gətirilən vəhşiliklər idi. Ermənilər 60-dan çox məscidi tamamilə dağıtmış, qalanlarını isə tövlə kimi istifadə edərək burada inək və donuz saxlamış, bununla da təkcə Azərbaycanın deyil, sayı 2 milyardlıq İslam dünyasının dini etiqadına hörmətsizlik etmiş, inancımızı təhqirə məruz qoymuşlar. Hər zaman onlara qarşı haqsızlıq edildiyini iddia edən, bağıraraq doğrunun bağrının yarılmasına səbəb olan, hayasızlıqla saxtakarlıqlarının və vəhşiliklərinin üstünü örtməyə çalışan ermənilər bu görüntülərin ortaya çıxması ilə dünyanın da gözündən düşmüş oldular. Bu gün həmin məscidlər yenidən bərpa edilir, tarixi orijinallıqları qorunaraq yenilənir, müasir dizayna qovuşur. Hər birimiz üçün sevindirici haldır ki, Prezidentimiz bütün sahələrdə olduğu kimi, ibadətgahlarımızın yenilənməsinə, bərpasına da biganə qalmır, hər bir məscidin açılışında şəxsən ailəsi ilə birlikdə iştirak edir. Bu məscidlərdə namaz qılır, dualar edir və Həcc ziyarəti zamanı Məkkədən gətirdiyi Qurani-Kərimi məscidlərə hədiyyə edir. Artıq ənənə halını almış bu hadisə onu deməyə əsas verir ki, dağıdılan, təhqirə məruz qalan bütün ibadətgahlarımız tezliklə bərpa ediləcək və yenidən öz ata-baba yurduna qayıdan vətəndaşlarımızın and yerinə çevriləcəkdir.

*İmran ƏLİYEV,*
*“Xalq qəzeti”*